**Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın**

**4 saylı protokolu**

**Daşkəsən şəhəri** **29 oktyabr 2024-cü il**

**İştirak edirdilər:**

İctimai şuranın üzvləri:

1. Həsənov Samir Fidail oğlu (İctimai Şuranın sədri);
2. Əliyev Emin Etibar oğlu (İctimai Şuranın sədr müavini);
3. Zeynalova Aygül Azad qızı (İctimai Şuranın katibi);
4. Cəfərova Gülnar Abbasqulu qızı;
5. Xəlilov Vüqar Müslüm oğlu.

Dəvət olunanlar:

"Qızıl Aypara" Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri Vasif Hüseynov; Daşkəsən rayon Mədəniyyət işçiləri müstəqil həmkarlar təşkilatının sədri Mətanət Abdullayeva; Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Daşkəsən rayon filialının sədri Bakir Qurbanov

**İclasın sədri: S. Həsənov**
**İclasın katibi: A. Zeynalova**

**Gündəlik üzrə məsələ:**

Daşkəsən rayonunda bərk məişət və xüsusilə plastik tullantıların ətraf mühitə məfi təsiri barədə

**Gündəlik səsə qoyuldu və yekdilliklə qəbul olundu.**

Lehinə: 5
Əleyhinə: 0
Bitərəf: 0

**Eşidildi:**

İclasa sədrlik edən İctimai Şuranın sədri Samir Həsənov iclası açıqdan sona katibdən kompüter arxasına keçərək protokol üçün qeydlər aparmasını xahiş elədi. Samir Həsənov gündəlikdəki məsələ barəsində bildirdi ki, gözəl təbiətə malik olan Daşkəsən rayonunda bərk məişət tullantıları ilə yanaşı, plastik tullantılar da əsaslı şəkildə ətraf mühiti çirkləndirir. Rayonumuzun bütün ərazisində ətraf muhitin bərk məişət və plastik tullantılarla çirklənməsinin qarşısının alınması üçün daha məqsədyönlü işlər görülməli, əhali arasında, təhsil müəssisələrində maarifləndirmə tədbirləri genişləndirilməlidir. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində rayonda silsilə ekoloji tədbirlər həyata keçirilir, çoxsaylı maarifləndirmə işləri davam etdirilir, müxtəlif ərazilərə zibil konteynerləri və qutuları yerləşdirilir. Buna baxmayaraq, xüsusilə plastik tullantılarla ərazilərin çirkləndilirməsi hallarına tez-tez rast gəlmək olur. Bəzi hallarda insanlar ətrafı maşınla zibilləyirlər. Yəni tullantıların qadağan edilən yerlərə atılması heç də həmişə insanların uzağa gedə bilməməsindən qaynaqlanmır. Zibili uzun müddət toplayıb, sonra maşınla gətirib çay kənarına, kanallara və ya boş ərazilərə atırlar. Kəndlərdə,

turistik bölgələrdə çirklənməni isə daha çox oranı ziyarət edən bəzi turistlər edir. Məsələn, Bayan, Kəmərqaya, Xoşbulaq, Alaxançallı, Çanaqçı, Əmirvar, Qabaqtəpə kimi istirahət ərazilərində insanların sıx ziyarət etdiyi mövsümlərdə tullantılar çoxalır. Bəzən gələnlər zibilləri daşımaq əvəzinə yandırırlar. Bu isə daha ciddi problemlərə, havanın çirklənməsinə, bəzən yanğınlara səbəb olur. Daşkəsən şəhərində çoxmərtəbəli binaların bəzi sakinləri tullantıları yaşadıqları binaların girişinə, küçəyə, hara gəldi tullaması halları hələ də özünü göstərir.

**Çıxışlar:**

1. İctimai Şuranın üzvü Aygül Zeynalova çıxışında dedi ki, təcrübə bu sahədəki problemləri maarifləndirmə yolu ilə tam aradan qaldırmağın mümkün olmadığını göstərir. Zibili yerə atanların kimliyi müəyyənləşdirilməlidir. Lazım gəldikdə müşahidə kameralarından istifadə olunmalıdır. Təkcə cərimələrlə iş bitmir. Ümumiyyətlə, ətraf mühitə münasibət hər bir insanın mənəviyyatına bağlı məsələdir. İctimai nəzarət də olmalıdır. Bunun üçün aidiyyəti qurumlarla qarşılıqlı fəaliyyət davam etdirilməlidir.

2. İctimai Şuranın üzvü Vüqar Xəlilov isə çıxışında məlumatlandırma ilə bağlı qarşıya qoyulan hədəflərin qənaətbəxş olmadığını bildirdi. Qeyd elədi ki, rayon ərazisində istirahət mərkəzlərinin, çay kənarlarının çirkləndirilməsi, zibillərin qalaqlanması, yerlərdə antisanitar vəziyyətin yaranması hallarına rast gəlinir. Çoxsaylı təmizlik aksiyalarının keçirilməsinə, ərazilərin təmiz saxlanılmasına və tullantıların düzgün idarə olunmasına yönələn maarifləndirici çağırışlar edilməsinə, əməli nümunələr göstərilməsinə baxmayaraq, yenə də narahatedici faktlarla üzləşirik. Cəmiyyətimizin hər bir fərdi tullantıları təbiətə, ətraf ərazilərə atmamaq, təmizliyə riayət etmək vərdişlərini özünə təlqin etsin, ətrafındakıları da nümunəvi əməlləri ilə maarifləndirsin. Eyni zamanda rayon ərazisindən toplanmış plastik tullantıların satışını təşkil etmək məqsədəuyğun olardı.

**Gündəlikdəki məsələ müzakirə edildikdən sonra səsə qoyuldu və yekdilliklə qəbul olundu.**

Lehinə: 5
Əleyhinə: 0
Bitərəf: 0

**Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şura qərara alır:**

1. Daşkəsən rayonunda bərk məişət və plastik tullantıların ətraf mühitə məfi təsiri barədə sakinlərin müntəzəm olaraq məlumatlandırılması davam etdirilsdin və və bu barədə RİH-nə məlumat verilsin.

2. Daşkəsən rayonu ərazisində plastik tullantıların toplanıb satışının həyata keçirilməsi məqsədilə aidiyyəti üzrə müraciətlər olunsun.

**İclasın sədri:** **Samir Həsənov**

**İclasın katibi:** **Aygül Zeynalova**